# AZƏRBAYCAN RESPUBLKASININ ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRLİYİ İLƏ UKRAYNANIN ƏMƏK VƏ SOSİAL SİYASƏT NAZİRLİYİ ARASINDA ƏMƏK, MƏŞĞULLUQ VƏ SOSİAL MÜDAFİƏ SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA

# SAZİŞ

AZƏRBAYCAN RESPUBLİKASI ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRLİYİ VƏ UKRAYNANIN ƏMƏK VƏ SOSİAL SİYASƏT NAZİRLİYİ (BUNDAN SONRA "TƏRƏFLƏR"),

TƏRƏFLƏR ARASINDA ƏMƏK, MƏŞĞULLUQ VƏ SOSİAL MÜDAFİƏ SAHƏSİNDƏ DOSTLUQ MÜNASİBƏTLƏRİNİN VƏ ƏMƏKDAŞLIĞIN İNKİŞAFINDA MARAQLI OLDUQLARINI NƏÇƏRƏ ALAORAQ,

İKİTƏRƏFLİ ƏMƏKDAŞLIĞIN İQTİSADİ VƏ SOSİAL TƏRƏQQİNİN STİMULLAŞDIRILMASINA XİDMƏT EDƏCƏYİNİ ANLAYARAQ,

ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ SAHƏSİNDƏ İKİTƏRƏFLİ ƏLAQƏLƏRİN MÖHKƏMLƏNDİRİLMƏSİNƏ YÖNƏLDİLMİŞ BÜTÜN BİRGƏ SƏYLƏRİN HƏR İKİ TƏRƏFDƏN DƏSTƏKLƏNMƏSİNƏ ÇALIŞARAQ,

AŞAĞIDAKILAR HAQQINDA RAZILIĞA GƏLDİLƏR.

## MADDƏ 1

TƏRƏFLƏR, ƏMƏK, MƏŞĞULLUQ VƏ SOSİAL MÜDAFİƏ SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞI İNKİŞAF ETDİRƏCƏK VƏ GENİŞLƏNDİRƏCƏKLƏR.

## MADDƏ 2

TƏRƏFLƏR ARASINDA ƏMƏKDAŞLIQ AŞAĞIDAKI İSTİQAMƏTLƏR ÜZRƏ HƏYATA KEZİRİLƏCƏKDİR :

a) ƏMƏK VƏ SOSİAL MÜDAFİƏ PROBLEMLƏRİNİN HÜQUQİ TƏNZİMLƏNMƏSİ ;

b) İNSAN EHTİYATLARININ PLANLAŞMASI VƏ İNKİŞAFI, O CÜMLƏDƏN MÜXTƏLİF ƏHALİ QRUPLARININ MƏŞĞULLUĞU, ƏMƏK BAZARININ İNFORMASİYA SİSTEMLƏRİ, ƏMƏK BAZARININ FƏAL SİYASƏTI, MƏŞĞULLUQ SAHƏSİNDƏ TƏŞƏBBÜSLƏRİN DƏSTƏKLƏNMƏSİ, UKRAYNA VƏTƏNDAŞLARININ AZƏRBAYCAN RESPUBLİKASINDA MƏŞĞULLUĞU VƏ AZƏRBAYCAN RESPUBLİKASI VƏTƏNDAŞLARININ UKRAYNADA MƏŞĞULLUĞU PROSESLƏRİNİN TƏNZİMLƏNMƏSİ ;

c) SOSİAL-ƏMƏK MÜNASİBƏTLƏRİ, O CÜMLƏDƏN ONLARIN QANUNİ TƏNZİMLƏNMƏSİ, ƏMƏYİN TƏFTİŞİ, ƏMƏK MÜBAHİSƏLƏRİNİN HƏLLİ YOLLARI ;

ç) SOSİAL SIĞORTA, O CÜMLƏDƏN PENSİYA SIĞORTASI, İŞSİZLİK SIĞORTASI, İSTEHSALATDA BƏDBƏXT HADİSƏLƏRDƏN VƏ PEŞƏ XƏSTƏLİKLƏRİNDƏN SIĞORTA ;

d) SOSİAL SIĞORTA VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ SİSTEMİNİN İDARƏ OLUNMASININ TƏKMİLLƏŞDİRİLMƏSİ VƏ YARDIM ALMAQ

HÜQUQUNA MALİK OLAN ŞƏXSLƏRƏ SOSİAL MÜAVİNƏTLƏRİN ÖDƏNİLMƏSİ ;

c) PEŞƏ HAZIRLIĞININ, PEŞƏ TƏSNİFATLARI STANDARTLARININ TƏKMİLLƏŞDİRİLMƏSİ ;

j) TƏRƏFLƏRİN QARŞILIQLI RAZILIQ ƏLDƏ ETDİKLƏRİ BÜTÜN DİGƏR SAHƏLƏRDƏ.

## MADDƏ 3

TƏRƏFLƏR ƏMƏKDAŞLIĞI AŞAĞIDAKI FORMALARDA HƏYATA KEÇİRƏCƏKLƏR:

a) ƏMƏK VƏ SOSİAL MÜDAFİƏYƏ AİD OLAN QANUNVERİCİLİK VƏ NORMATİV SƏNƏDLƏRİN MÜBADİLƏSİ;

b) TƏRƏFLƏRİN EKSPERTLƏRİ ARASINDA MƏSLƏHƏTLƏŞMƏLƏRİN APARILMASI;

c) TƏRƏFLƏRİN ƏRAZİLƏRİNDƏ KEZİRİLƏN KONFRANSLARDA, SEMİNARLARDA VƏ DİGƏR BEYNƏLXALQ TƏDBİRLƏRDƏ TƏRƏFLƏRİN EKSPERTLƏRİNİN İŞTİRAKI;

z) DİGƏR TƏRƏFİN DÜVLƏT İDARƏLƏRİNDƏ TƏCRÜBƏ KEZİRİLMƏSİ;

d) MÜVAFİQ DÖVLƏT ORQANLARI İŞÇİLƏRİNİN İXTİSAS SƏVİYYƏSİNİN ARTIRILMASI;

e) MÜTƏXƏSSİSLƏRİN DİGƏR TƏRƏFİN ƏRAZİSİNƏ TƏLİM XARAKTERLİ SƏFƏRLƏRİ;

ə) BEYNƏLXALQ FORUMLARDA ƏMƏK VƏ SOSİAL MÜDAFİƏ MƏSƏLƏLƏRİ ÜZRƏ QARŞILIQLI FƏALİYYƏT VƏ DƏSTƏK.

## MADDƏ 4

TƏRƏFLƏR, HƏR İKİ DÖVLƏTDƏ YAŞAYAN ƏLİLLƏRİN CƏMİYYƏTƏ İNTEQRASİYASINA KÖMƏKLİK GÖSTƏRMƏK MƏQSƏDİLƏ ƏLİLLƏRİN PEŞƏ VƏ ƏMƏK BƏRPASI SAHƏSİNDƏ TƏCRÜBƏ MÜBADİLƏSİ APARACAQLAR.

## MADDƏ 5

TƏRƏFLƏR, SOSİAL-ƏMƏK MÜNASİBƏTLƏRİ, İŞÇİ QÜVVƏSİNİN MİQRASİYASI VƏ ƏHALİNİN MƏŞĞULLUĞU, ƏMƏYİN TƏFTİŞİ VƏ ONUN HAQQININ ÖDƏNİLMƏSİ, VƏTƏNDAŞLARIN SOSİAL SIĞORTA VƏ SOSİAL TƏMİNAT SİSTEMLƏRİNİN İDARƏ OLUNMASI MƏSƏLƏLƏRİ ÜZRƏ HƏR İKİ ÖLKƏNİN MÜTƏXƏSSİSLƏRİNİN TƏCRÜBƏ MÜBADİLƏSİNİN APARILMASI ÜÇÜN SƏY GÖSTƏRƏCƏKLƏR.

## MADDƏ 6

1. TƏRƏFLƏR, NÖVBƏ İLƏ HƏR İKİ TƏRƏFİN ƏRAZİSİNDƏ MÜVAFİQ SƏVİYYƏDƏ GÖRÜŞLƏRİN TƏŞKİL OLUNMASI HAQQINDA RAZILIĞA GƏLƏ BİLƏRLƏR. BELƏ GÖRÜŞLƏR ZAMANI BU SAZİŞİN HƏYATA

KEÇİRİLMƏSİNDƏN İRƏLİ GƏLƏN MƏSƏLƏLƏR MÜZAKİRƏ OLUNACAQDIR.

2. TƏRƏFLƏR, BU SAZİŞİN İCRASI İLƏ BAĞLI PRAKTİKİ TƏDBİRLƏRİ HƏYATA KEÇİRƏN VƏ PROTOKOL QƏRARLARINI QƏBUL EDƏN ORQAN VƏ TƏŞKİLATLARI MÜƏYYƏN EDƏ BİLƏRLƏR.

## MADDƏ 7

BU SAZİŞİN MALİYYƏ TƏMİNATI HƏR İKİ TƏRƏF ÜÇÜN MƏQBUL SAYILAN ŞƏRTLƏR ƏSASINDA, MİLLİ QANUNVERİCİLİYƏ MÜVAFİQ HƏYATA KEÇİRİLƏCƏKDİR.

## MADDƏ 8

TƏRƏFLƏR QARŞILIQLI RAZILIQ ƏSASINDA BU SAZİŞƏ ZƏRURİ ƏLAVƏLƏR VƏ DƏYİŞİKLİKLƏR EDƏ BİLƏRLƏR.

## MADDƏ 9

BU SAZİŞ 5 İL MÜDDƏTİNƏ BAĞLANIR VƏ İMZALANDIĞI TARİXDƏN QÜVVƏYƏ MİNİR. TƏRƏFLƏRDƏN BİRİ SAZİŞİN MÜDDƏTİNİN BAŞA ÇATMASINA ƏN AZI 3 AY QALMIŞ DİGƏR TƏRƏFƏ SAZİŞİN FƏALİYYƏTİNƏ XİTAM VERMƏK NİYYƏTİ BARƏDƏ YAZILI BİLDİRİŞ TƏQDİM ETMƏZSƏ, SAZİŞİN QÜVVƏSİ AVTOMATİK OLARAQ NÖVBƏTİ 2 İLLİK DÖVRƏ UZADILIR.

BU SAZİŞ 2000-Cİ İL MAYIN "19"-DA BAKI ŞƏHƏRİNDƏ HƏR BİRİ AZƏRBAYCAN, UKRAYNA VƏ RUS DİLLƏRİNDƏ OLMAQLA İKİ NÜSXƏDƏ İMZALANMIŞDIR, HƏR İKİ MƏTN EYNİ QÜVVƏYƏ MALİKDİR. BU SAZİŞİN MÜDDƏALARININ TƏFSİRİ ZAMANI FİKİR AYRILIĞI YARANDIĞI HALDA, TƏRƏFLƏR RUS DİLİNDƏ OLAN MƏTNƏ MÜRACİƏT EDƏCƏKLƏR.

| | |
|---|---|
| AZƏRBAYCAN RESPUBLİKASI ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRLİYİ | UKRAYNANIN ƏMƏK VƏ SOSİAL SİYASƏT NAZİRLİYİ |